**Müsabiqələr**

**Fotomüsabiqə "Azərbaycan: idman fotoobyektivdə"**

**(Peşəkar və həvəskar fotoqrafların nəzərinə! Qeyri-adi mükafatlar qazanmaq və əsərlərinizin bütün Avropada sərgilənməsi imkanı əldə edin)**

Avropa Azərbaycan Cəmiyyəti (AAC/TEAS), Avropa Oyunlarının təşkilatçısı – Bakı 2015-in rəsmi dəstəyi ilə dünyanın dörd bir tərəfindəki peşəkar və həvəskar fotoqraflar üçün fotomüsabiqə elan etməkdən qürur duyur. Müsabiqənin məqsədi 2015-ci ilin iyununda Bakının ev sahibliyi edəcəyi ilk Avropa Oyunlarından öncə Azərbaycanı dünyaya idman ölkəsi kimi təqdim etmək və idman mədəniyyətini nümayiş etdirməkdir.
Müsabiqəyə həvəskar və peşəkar fotoqrafların bütün növ şəkilləri qəbul ediləcək.

Hər növ fotoşəkilləri təqdim edə bilərsiniz – əhatə dairəsi genişdir, yəni təqdim edəcəyiniz fotolar ya Azərbaycanla əlaqədar ola bilər, ya idmanın universallığı, ya da ümumiyyətlə Avropa oyunlarının sizin üçün nə ifadə etdiyini göstərə bilərsiniz.

Bizə Avropa Oyunlarının mənasını əks etdirən fotolar təqdim edin.

Sizin fotolarınız müxtəlif obyektlərə yönəlmiş ola bilər. Məsələn, Azərbaycan ilk dəfə ev sahibliyi edəcəyi Avropa Oyunlarına necə hazırlaşır; digər dövlətlər Avropa Oyunlarına necə hazırlaşır; idman görüşləri və ya bu tədbirlərin keçirildiyi binalar; müxtəlif idman yarışlarında iştirak etmiş azərbaycanlı idmançılar; Avropa Oyunlarında iştirak etmək üçün müsabiqədə iştirak edən beynəlxalq idmançılar; Azərbaycana məxsus idman oyunları; və ya Azərbaycanda idman mədəniyyəti.

Xəyallarınızı cilovlamayın – qoy idmanın ruhu sizə ilham versin.

Aşağıda göstərilən mükafatlardan əlavə müsabiqə qaliblərinin seçilmiş işləri Avropa Oyunları öncəsi London, Paris, Berlin, Brüssel, İstanbul və Bakı şəhərlərində nümayiş etdiriləcək.

**Mükafatlar:**

- I yerin qalibi üçün mükafat – Bakıya iki nəfərlik təyyarə bileti (gediş-gəliş) və qalmaq üçün yer və 2015-ci il Avropa Oyunlarını izləmək üçün bir həftəlik giriş bileti [1].
- II yerin qalibi üçün mükafat –Avropa Oyunları zamanı Bakıda uzadılmış həftəsonu keçirmək [2] [3] və oyunlara iki nəfərlik bir günlük giriş bileti.
- III yerin qalibi üçün mükafat - İPad və Avropa Oyunlarına iki nəfərlik bir günlük giriş bileti.

Qalib şəkillərin seçimi ilə bağlı qərarı Ed Kaşi, Filip Ratmer, Əqdəs Bağırzadə kimi beynəlxalq səviyyədə tanınmış fotoqraflardan ibarət münsiflər heyəti verəcək.
Daha ətraflı məlumatı tezliklə AAC-nin internet səhifəsindən (www.teas.eu) əldə etmək olar.

**Müsabiqənin şərtləri:**

İştirakçılar hər birinin ölçüsü 2-3 MB olan maksimum beş (5) JPG şəkil göndərə bilərlər. Hər bir şəklin başlığı, qısa təsviri ilə yanaşı müəllifin istifadə etdiyi foto texnikası və yaxud

[1] Əgər qalib Bakıdandırsa, o zaman o, dəyəri maksimum 800 avro olan Paris, London, Berlin, Brüssel və ya İstanbul şəhərlərinə təyyarə bileti (gediş-gəliş) qazanacaq.
[2] Cümə, Şənbə, Bazar və ya , Şənbə, Bazar, Bazar ertəsi daxil olan uzun həftə sonu
[3] Həftəsonu səhər yeməyi də daxil olmaqla, Bakıdakı otel xərcləri ödəniləcək, uçuş xərcləri isə ödənilməyəcək.

yaradıcılıq baxışları barədə qısa məlumat (maksimum 350 söz) təqdim edilməlidir. İştirakçılar öz adlarını, ünvanlarını və əlaqə telefonlarını təqdim etməlidir.

Şəkillər competitions@teas.eu elektron ünvanına göndərilməlidir.

Şəkillərin qəbulu üçün son tarix 24 noyabr, 2014-cü il, saat 17:00-dır.

Çap üçün təqdim olunan bütün şəkillərin yüksək ölçülü variantları olmalıdır.

Müsabiqədə iştirak üçün yaş həddi yoxdur və heç bir ödəniş haqqı tələb olunmur.

**Müsabiqənin şərtləri:**

Avropa Azərbaycan Cəmiyyətinin fotomüsabiqəyə dair şərtlərini oxuya bilərsiniz.

“**Azərbaycan: idman fotoobyektivdə**”

**Şərtlər:**

Şəkillərin qəbulu üçün son tarix 24 noyabr, 2014-cü il, saat 17:00-dır.

1. Bu müsabiqədə AAC-nin əməkdaşları, onları ailə üzvləri və ya ümumilikdə müsabiqənin hazırlığı ilə məşğul olanlarla əlaqəsi olan adamlardan başqa bütün ölkələrin və xalqların nümayəndələri iştirak edə bilərlər.

2. Bu müsabiqəyə qəbul barədə bütün müfəssəl məlumatlar müsabiqənin şərtlərinin bir hissəsini təşkil edir. Münsiflər heyətinin qərarı son qərardır və heç bir əlavə qərar qəbul olunmayacaq. Müsabiqəyə öz təqdimatınızı göndərməklə bu şərtləri qəbul etmiş olursunuz.

3. Şəkillər competitions@teas.eu elektron ünvanına təqdim olunmalıdır. Təqdim olunan şəkillərin üstündə təqdim edənin adı qeyd edilməlidir. Şəkil JPG formatında və sadəcə baxış üçün 2-3 MB ölçüdə olmalıdır. Bütün təqdim olunan şəkillərin çap versiyası üçün yüksək keyfiyyətli variant olmalıdır. Müraciət edənlər şəkillərlə birgə öz adını, ünvanını və telefon nömrəsini də əlavə etməlidir. Təəssüf ki, şəkilləri poçtla qəbul etmirik.

4. Bütün şəkillər elanda göstərilən tarix və saatadək təqdim olunmalıdır.

5. Təqdim olunan bütün şəkillər onu təqdim edənin öz əsəri olmalı, əvvəlcədən heç bir yerdə nəşr edilməməli və heç bir fotomüsabiqənin qalibi olmamalıdır. Təqdim edən bu məsuliyyəti öz üzərinə götürməlidir ki, təqdim olunan şəklin çəkilişinə icazəsi var və heç bir qanunla üçüncü tərəfin müəlliflik hüququ pozulmur. Təqdimatçılar zəmanət verməlidir ki, təqdim etdikləri şəkillərin müəlliflik hüququ məhz onların özünə məxsusdur.

6. Müsabiqəyə təqdim edilən bütün şəkillərin müəlliflik hüququ təqdimatçılara aid olaraq qalır. Lakin onların müsabiqəyə daxil olduğunu nəzərə alaraq hər bir təqdimatçı Avropa Azərbaycan Cəmiyyətinə belə bir ümumi, təxirəsalınmaz, daimi lisenziya verir ki, AAC istənilən fotoşəkildən və ya onların hamısından öz nəşrlərində, internet səhifəsində və ya tanıtım məqsədilə hazırlanmış reklam materiallarında istifadə edə bilər.

7. Hər bir şəxs maksimum 5 fotoşəkil təqdim edə bilər. Gecikmiş, aydın olmayan, natamam, təhrif olunmuş, çirkləndirilmiş və ya rüşvətlə əldə edilmiş təqdimatlar qəbul edilməyəcək. İtmiş şəkillərə görə heç bir məsuliyyət daşınmayacaq və göndərilmə dəlili qəbul olunma dəlili kimi qəbul edilməyəcək. Fotoşəkillər hansısa agentlik və ya üçüncü tərəf vasitəsilə göndərilə bilməz.

8. Rəqəmsal təhrifə yol verilmir. Təqdim edilən fotolarda rəqəmsal təhriflər edilə və keyfiyyəti yüksəldilə bilməz. Əsas rəng balansı, dəqiqlik tətbiqi və cüzi kəsimlər isə tətbiq edilə bilər.

9. Görünüşü ən çox cəlbedici, orijinal və özü-özünü izah edən şəkillər qalib olacaq. Qaliblər şəkillərin qəbulunun son tarixindən sonra 14 gün müddətində müəyyənləşəcək.

10. Qalib olan fotolar 2014-cü ilin sonları-2015-ci ilin əvvəllərində London, Paris, Brüssel, Berlin, İstanbul və Bakıdakı qalereyalarda sərgilənəcək.

11. I yerin qalibi (bir nəfər) Bakıya iki nəfərlik təyyarə bileti (gediş-gəliş), qalmaq üçün yer və 2015-ci il Avropa Oyunlarını izləmək üçün bir həftəlik giriş bileti qazanacaq [4].

12. II yerin sahibi (bir nəfər) Avropa Oyunları zamanı Bakıda uzadılmış həftəsonu keçirmək [5] [6] və oyunlara bir günlük iki nəfərlik giriş bileti qazanacaq.

13. III yerin sahibi (bir nəfər) İPad və Avropa Oyunlarına iki nəfərlik bir günlük giriş bileti qazanacaq.

14. Mükafatların əvəzinə onun ekvivalenti kimi nağd ödəniş edilməyəcək.

15. Belə bir hal ola bilər ki, müsabiqə baş tutmaz və ya sponsordan asılı olmayan səbəblər üzündən mükafatların verilməsi qeyri-mümkün olar, müvafiq olaraq sponsor son qəti imkan tədbirini dəyişə və əlavələr edə bilər. Bu halda da təqdimatçı razılaşır ki, bunun nəticəsində sponsor heç bir öhdəlik daşımır.

16. İngiltərə qanunları tətbiq olunur və İngiltərə məhkəməsinin eksklüziv yurisdiksiyası üstünlük təşkil edəcək.

Təşviqatçı: Avropa Azərbaycan Cəmiyyəti. Ünvan: 15 Queen Anne's Gate, London, SW1H 9BU.

Avropa Azərbaycan Cəmiyyətinin fotomüsabiqə səhifəsinə keçid.

[4] Əgər qalib Bakıdandırsa, o zaman o, dəyəri maksimum 800 avro olan Paris, London, Berlin, Brüssel və ya İstanbul şəhərlərinə təyyarə bileti (gediş-gəliş) qazanacaq.
[5] Cümə, Şənbə, Bazar və ya , Şənbə, Bazar, Bazar ertəsi daxil olan uzun həftə sonu
[6] Həftəsonu səhər yeməyi də daxil olmaqla, Bakıdakı otel xərcləri ödəniləcək, uçuş xərcləri isə ödənilməyəcək.